

# “Azərbaycan” qəzeti redaksiyasına!

*Hörmətli Bəxtiyar müəllim!*

*Ötən həftənin şənbə günü poçtdan zəng vurdular ki, sizə səngərdən teleqram gəlib. Ürəyim dözmədi, xahiş elədim məzmunu desinlər. Sevindim. Sinələri şeir dolu mənim əsgər balalarımdı. Onlar azad etdikləri torpaqlarımızdan məni də xəbərdar edir, irəlilədikcə adımı yazdıqları “Nəriman Həsənzadə” raketlərini atır, öz sevinclərini mənimlə bölüşürlər.*

*Mən qəlbən igid əsgər balalarımın yanındayam.*

*Cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun yüksək şücaətini, qəhrəmanlıq ənənələrini tarixi çıxışlarında, müxtəlif dillərdə verdiyi beynəlxalq müsahibələrində həmişə xüsusi qeyd edir.*

*Bu teleqram, buradakı yüksək qələbə əhvali-ruhiyyəsi bizi də yaşamağa, yaratmağa səsləyən yenilməz qüvvədir.*

*Hörmətli Bəxtiyar müəllim!*

*Vətən müharibəsi başlanandan bu günə kimi Sizin qəzetdə cəbhəyə, əsgərlərimizə həsr etdiyim üçüncü şeirimi də dərc etdiyinizə görə minnətdaram.*

TELEQRAM

№ AZ1917/0002846947

| | |
|---|---|
| 16.10.20 11:49:51 | *Kateqoriyası: Adi* |
| FÜZULI PF | *Xüsusi qeydlər:* |
| *Göndərən PŞ: Bala Bəhmənli PŞ* | *Qəbul edən PŞ: BAKI-1* |

Hara:
BAKI ŞƏHƏRİ HƏSƏN SEYİDBƏYLİ KÜÇƏSİ 32

Kimə:
XALQ ŞARİ NƏRMAN HƏSƏNZADƏ

ÇOX HÖRMƏTLİ AZƏRBAYCANIN MƏRSİYƏ RƏMZİ GÖZƏL AĞSAQQAL NƏRİMAN MÜƏLLİM QARABAĞ TORPAĞINDAN VƏTƏNİN HƏR QARIŞ TORPAĞIN UĞRUNDA CANINI QURBAN VERMƏYƏ HAZIR OLAN DÖYÜŞÇİLƏRDƏN SALAMLAR OLSUN VƏ SİZDƏN XAHİŞ EDİRİK BİZİM BU SALAMIZI ARİF MÜƏLLİMƏ ELÇİN MÜƏLLİMƏ ANAR MÜƏLLİMƏ VƏ TANIDIĞIMIZ BÜTÜN AZƏRİ VƏ TÜRK ASAQQALARINA ÇATDIRIN ALLAH QOYSA TEZLİKLƏ ALİ BAŞ KOMANDAMIZIN QƏTİYƏTLİ VƏ ƏMİRİ ALTINDA BU ERMƏNİ HƏŞƏRATLARINI ƏBƏDİ VƏ ƏZƏLİ TORPAQLARIMZDAN QOVUB BÜTÜN QARABAĞ TORPAĞINDA BÜTÜN AZƏRBAYCAN DALĞANACAQ BAXIN ONDA ŞUŞADA YALLI GEDƏCƏYİK QOY MURDAR ERMƏNİLƏR BİLSİN Kİ BU YALLINI ƏSİL SAHİBİ KİMDİR TEZLİKLƏ ŞUŞAYA SİZ ASAQQALARIN GƏLİŞİ MÜNASİBƏTİLƏ SİZİN AĞAQLARINIZIN ALTINDA QARABAĞ QOÇU KƏÇƏCƏYİK ARTIQ BÜTÜN DÜNYADA FƏXİRLƏ DEYƏ BİLƏRİK Kİ BİZ AZƏRBAYCANLIYIQ BİZİM AĞILLI VƏ MÜDÜRÜK YENİLMƏZ VƏ QƏTİYƏTLİ ALİ BAŞ KOMANDAMIZ RƏŞADƏTLİ ORDUMUZ VƏ MİLLİ BİRLİYİMİZ VAR HÖRMƏTLƏ DÖYÜŞÇÜLƏR HÖRMƏTLƏ QULİYEV HEYDƏR HƏSƏNOV ZAHİR ƏLİYEV NƏRİMAN RƏFİYEV ELÇİN ƏHMƏDOV TALEH VƏ BİR ÇOXLARI

Kimdən:
QULİYEV HEYDƏR QASIM OĞLU

Haradan:
FÜZULİ RAYON ZOBUCUQ QƏSƏBƏSİ SƏNGƏRDƏN MƏKTUB

Azərbaycan.- 2020.- 22 oktyabr.- S.8.